Baghirbekova A.Kh.♦

DOI: 10.25108/2304-1730-1749.iolr.2026.84.38-51
UDC: 343.541-053.2

Improving Criminal Law Protection of Children from Sexual Exploitation: International Standards and Prospects for National Legislation Reform

Abstract: The issues of enhancing the preventive capabilities of Articles 171, 171-1, and 171-2 of the Criminal Code of the Republic of Azerbaijan, as well as conceptually and terminologically improving these norms in light of progressive international standards, including the Lanzarote Convention, are analyzed from a scientific and practical perspective. The study puts forward the following scientific recommendations: uniformly establishing the age limit of the subject at 18 years in crimes of child sexual exploitation; replacing the ethically outdated terms "prostitution" and "pornography" with "child sexual abuse materials" in accordance with international standards; establishing special liability for the dissemination of virtual materials created through artificial intelligence; removing the requirement of a physical meeting in online operations and applying the criterion of "presumption". The proposed reforms, while preserving the internal consistency of national legislation, modernize the protection mechanisms for children's rights.

Keywords: Lanzarote Convention, child sexual abuse material, exploitation for the purpose of prostitution, online harassment, subjective suspicion criterion, artificial intelligence, Criminal Code.

References

1. Constitution of the Republic of Azerbaijan. Adopted by referendum on November 12, 1995 (with periodic amendments and additions). (in Azerbaijani).

2. Criminal Code of the Republic of Azerbaijan. Baku, December 30, 1999 (entered into force on September 1, 2000; 2026 version). (in Azerbaijani).

3. Law of the Republic of Azerbaijan on the ratification of the Council of Europe Convention on the Protection of Children against Sexual Exploitation and Sexual Abuse (Lanzarote Convention), Baku, October 22, 2019, No. 1681-VQ. (in Azerbaijani).

4. Law of the Republic of Azerbaijan on the ratification of the Convention for the Protection of Human Rights and Fundamental Freedoms and its Protocols Nos. 1, 4, 6, and 7, Baku, January 25, 2002, No. 236-IIQ. (in Azerbaijani).

5. Resolution No. 4 of the Plenum of the Supreme Court of the Republic of Azerbaijan dated June 30, 2008, "On judicial practice regarding cases of crimes committed by minors." (in Azerbaijani).

6. Official statistical data of the Main Department for Combating Trafficking in Human Beings of the Ministry of Internal Affairs of the Republic of Azerbaijan covering the years 2005–2025 // insanalveri.gov.az. 7. Annual Report of the Commissioner for Human Rights (Ombudsman) of the Republic of Azerbaijan on the Protection of Human Rights in the Republic of Azerbaijan for 2025. Baku, 2026 // ombudsman.az. (in Azerbaijani).

♦**Baghirbekova Aydan Khikmet** – Student of the Faculty of Law, Baku State University (Azerbaijan). E-mail: aydanlinkin@gmail.com

8. Samadova Sh.T. The Significance of Categorizing Crimes and the Age of Criminal Liability // Baku University News (Social-Political Sciences Series), 2011, No. 4, pp. 31-42. (in Azerbaijani).

9. Humbatov S. Cybersecurity and Azerbaijan // Police Academy of the Ministry of Internal Affairs, Department of "Organization of Management in Internal Affairs Bodies," Baku, 2023. (in Azerbaijani).

10. Eyvazov H. Reliable Protection of Children's Rights in the Virtual Space // Police Academy of the Ministry of Internal Affairs, Scientific Research and Editorial-Publishing Department, Baku, 2024. (in Azerbaijani).

11. Judgment of the Grand Chamber of the European Court of Human Rights. Case of Ramanauskas v. Lithuania, 5 February 2008, Application no. 74420/01 // hudoc.echr.coe.int.

12. Judgment of the European Court of Human Rights. Case of Teixeira de Castro v. Portugal, 9 June 1998, Application no. 25829/94 // hudoc.echr.coe.int.

13. Judgment of the European Court of Human Rights. Case of Bannikova v. Russia, November 4, 2010, Application no. 18757/06 // hudoc.echr.coe.int.

14. Directive 2011/93/EU of the European Parliament and of the Council of 13 December 2011 on combating the sexual abuse and sexual exploitation of children and child pornography, and replacing Council Framework Decision 2004/68/JHA // L 335, Official Journal of the European Union.

15. ECPAT International. Terminology Guidelines for the Protection of Children from Sexual Exploitation and Sexual Abuse (Luxembourg Guidelines), Second Edition, March 2025 // ecpat.org.

16. United Nations Committee on the Rights of the Child. Guidelines regarding the implementation of the Optional Protocol to the Convention on the Rights of the Child on the sale of children, child prostitution and child pornography, CRC/C/156, September 2019 // ohchr.org.

17. United Nations, General Assembly. Resolution 79/243: United Nations Convention against Cybercrime, A/RES/79/243 (24 December 2024) // undocs.org/A/RES/79/243.

18. Lanzarote Committee (Committee of the Parties). Opinion on Article 23 of the Lanzarote Convention and its explanatory note, Adopted on 15-17 June 2015 // rm.coe.int.

The article was submitted: *2026 August 26*
Accepted for publication: *2026 September 17*

Bağırbəyova A.H.[♦]

DOI: 10.25108/2304-1730-1749.iolr.2026.84.38-51
UOT: 343.541-053.2

[♦]**Bağırbəyova Aydan Hikmət qızı** - Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin tələbəsi (Azərbaycan).E-mail: aydanlinkin@gmail.com

Uşaqların cinsi istismardan cinayət-hüquqi mühafizəsinin təkmilləşdirilməsi: beynəlxalq standartlar və milli qanunvericiliyin islahatı perspektivləri

Xülasə: Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 171, 171-1 və 171-2-ci maddələrinin qabaqlayıcı imkanlarının artırılması, habelə bu normaların Lansarot Konvensiyası daxil olmaqla mütərəqqi beynəlxalq standartlar işığında konseptual və terminoloji cəhətdən təkmilləşdirilməsi məsələləri elmi-praktik cəhətdən təhlil edilir. Tədqiqatda aşağıdakı elmi tövsiyələr irəli sürülür: uşaqların cinsi istismarı cinayətlərində subyektin yaş həddinin vahid şəkildə 18 yaş olaraq müəyyən edilməsi; etik cəhətdən köhnəlmiş "fahişəlik" və "pornoqrafiya" terminlərinin beynəlxalq standartlara uyğun "uşaq cinsi istismarı materialları" ilə əvəzlənməsi; süni intellekt vasitəsilə yaradılan virtual materialların yayılmasına xüsusi məsuliyyət müəyyən edilməsi; onlayn əməliyyatlarda fiziki görüş şərti aradan qaldırılaraq "zənn" meyarının tətbiqi. Təklif olunan islahatlar milli qanunvericiliyin daxili sistemliliyini qorumaqla yanaşı, uşaq hüquqlarının müdafiə mexanizmlərini modernləşdirir.

Açar sözlər: Lansarot Konvensiyası, uşaq cinsi istismarı materialları, fahişəlik məqsədilə istismar, onlayn təqib, subyektiv zənn meyar, süni intellekt, Cinayət Məcəlləsi.

Azərbaycan Respublikası tərəfindən 2019-cu il oktyabrın 22-də «Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında» Avropa Şurası Konvensiyasının təsdiq edilməsi barədə Qanun qəbul edilmiş və sözügedən beynəlxalq müqavilə ölkəmizdə 2020-ci il aprelin 1-dən qüvvəyə minmişdir [3]. Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinin II hissəsinin tələblərinə müvafiq olaraq, Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələr milli qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir [1]. Konvensiyada təsbit olunmuş qabaqcıl standartların milli hüquq sistemində mütəmadi olaraq rəhbər tutulması uşaq hüquqlarının və təhlükəsizliyinin hərtərəfli təmin edilməsi sahəsində dövlət tərəfindən həyata keçirilən proaktiv və sistemli hüquqi siyasətin mühüm göstəricisidir. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin (CM) 171, 171-1 və 171-2-ci maddələri mahiyyət etibarilə uşaqların cinayət-hüquqi mühafizəsinin gücləndirilməsi və beynəlxalq prinsiplərin milli qanunvericiliyə uğurlu inteqrasiyası məqsədilə formalaşdırılmışdır [2].

Bununla belə, qeyd olunan normaların qəbul edildiyi dövrdən ötən müddət ərzində Avropa Şurasının Lansarot Konvensiyası Tərəflərinin Komitəsinin təfsir təcrübəsi, habelə beynəlxalq rəqəmsal hüquqi terminologiya əhəmiyyətli inkişaf yolu keçmişdir. Bu rəqəmsal transformasiya şəraitində Cinayət Məcəlləsinin mövcud dispozisiyalarının konseptual, terminoloji və preventiv baxımdan elmi təhlil əsasında təkmilləşdirilməsi milli qanunvericilik bazasının effektivliyinin daha da artırılmasına və yeni nəsil kibertəhdidlərə qarşı daha çevik hüquqi qoruma mexanizmlərinin yaradılmasına xidmət edir.

Cinayət subyektinin vahid yaş həddinin (on səkkiz yaş) müəyyən edilməsi və struktur bütövlük

Milli qanunvericiliyin daxili sistemliliyinin təmin olunması baxımından elmi tövsiyələrin mühüm istiqamətlərindən biri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Xüsusi hissəsində uşaqların cinsi istismarı cinayətlərinə görə cinayət subyektinin yaş həddinin on səkkiz yaş kimi unifikasiya edilməsidir. Bu addım qanunvericilikdə mövcud olan müəyyən struktur fərqliliklərin aradan qaldırılmasına xidmət edir.

Professor Ş.T. Səmədovanın apardığı doktrinal təhlildə vurğulandığı kimi, Cinayət Məcəlləsinin «Yetkinlik yaşına çatmayanlar və ailə münasibətləri əleyhinə olan cinayətlər» adlı 22-ci fəslinin daxili strukturunda müəyyən uyğunsuzluqlar müşahidə olunur [8]. Belə ki, Məcəllənin 170-ci maddəsində subyektin on səkkiz yaşına çatması mütləq əlamət kimi göstərilsə də, uşaqların cinsi istismarını ehtiva edən 171-ci maddənin mövcud dispozisiyasında bu xüsusi subyekt əlaməti birbaşa təsbit edilməmişdir. Yetkinlik yaşına çatmayanlara qarşı yönəlmiş cinsi cinayətlərin yüksək ictimai təhlükə dərəcəsini, eləcə də onların uşaqların psixikasına vurduğu uzunmüddətli mənfi təsirləri tam dərk etmək qabiliyyəti məhz yetkinlik yaşına çatmış şəxsə məxsusdur.

Qeyd olunmalıdır ki, sözügedən boşluq Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun «Yetkinlik yaşına çatmayanların cinayətləri barədə işlər üzrə məhkəmə təcrübəsi haqqında» 2008-ci il 30 iyun tarixli 4 nömrəli Qərarında (Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2025-ci il 4 aprel tarixli 9 nömrəli Qərarı ilə edilmiş dəyişikliklərlə) hüquqi həllini tapmışdır [5]. Qərarın 8-ci bəndində birmənalı olaraq dəqiqləşdirilmişdir ki, yetkinlik yaşına çatmayanları fahişəliyə, pornoqrafiya tamaşalarında iştirak etməyə və ya digər əxlaqsız əməllərə cəlb etməyə görə yalnız yetkinlik yaşına çatmış və cinayəti qəsdən törətmiş şəxslər cinayət məsuliyyətinə cəlb oluna bilərlər. Buna görə də, on səkkiz yaş həddinin islahat predmeti olan hər üç maddənin (171, 171-1 və 171-2) dispozisiyasında xüsusi subyekt əlaməti kimi birbaşa təsbit edilməsi həm məhkəmə təcrübəsinə tam uyğundur, həm də qanunvericiliyin daxili struktur vahidliyini təmin edən elmi cəhətdən əsaslı bir addımdır.

Beynəlxalq standartlara və mütərəqqi terminologiyaya uyğun konseptual dəyişikliklər

Digər mühüm elmi-nəzəri təklif Məcəllənin müvafiq maddələrində istifadə olunan "pornoqrafiya" və "fahişəliyə cəlb etmə" anlayışlarından tədricən imtina edilməsi və beynəlxalq standartlara uyğun olaraq müvafiq redaksiyaların daxil edilməsidir. Xüsusilə, "uşaq cinsi istismarı materialları" və "uşaqların fahişəlik məqsədilə istismarı" terminlərinin tətbiqi məqsədəuyğun hesab olunur.

Bu terminoloji dəyişikliyin hüquqi-doktrinal zərurəti cinayət qanunvericiliyində "pornoqrafiya" və "fahişəlik" terminlərinin de-legitimasiyası ilə bağlıdır. Hüquqi və sosioloji müstəvidə bu anlayışlar yetkinlik yaşına çatmış şəxslərin sərbəst iradəsinə əsaslanan fəaliyyətini ifadə edə bilər. Lakin uşaqların sekual xarakterli hərəkətlərə cəlb olunması halları öz mahiyyəti etibarilə iradənin sərbəstliyini mütləq şəkildə istisna edir və uşağın razılığının mümkünlüyü barədə yanlış təsəvvür yaradır. Uşaqların sekual xarakterli istismarı ilə bağlı cinayətlərin birbaşa obyekti uşağın cinsi toxunulmazlığı və ləyaqəti olduğundan, bu sahədə uşağın hər hansı formada "razılıq" faktoru hüquqi əhəmiyyət kəsb etmir.

Bu müstəvidə, təklif olunan terminlərin milli cinayət qanunvericiliyində artıq mövcud olan digər anlayışlarla, xüsusən də CM-nin 144-1-ci maddəsinin Qeyd hissəsində təsbit edilmiş "istismar" anlayışı ilə terminoloji və məntiqi uyğunluğu xüsusi təhlil tələb edir. İnsan alveri cinayətində "istismar" ümumi (cins) anlayışdır və bir qayda olaraq zərərçəkmişin iradəsini sındıran məcburetmə, hədə-qorxu və ya aldatma kimi vasitələrin tətbiqini tələb edir [2]. Bunun əksinə olaraq, 22-ci fəsildə təklif edilən uşaqların seksual istismarı normalarında "istismar" xüsusi (növ) xarakter daşıyır. Burada "istismar" uşağın mütləq iradəsizliyi (razılıq vermək qabiliyyətinin olmaması) preambulasına əsaslanır. Bu cür fərqləndirmə "istismar" anlayışının vahid fəlsəfi-hüquqi strukturunu (insanın vasitə kimi istifadə olunması) qorumaqla yanaşı, təcrübədə mühüm kolliziyanın qarşısını alır: müdafiə tərəfi uşağın "razılığı" və ya zorakılığın olmaması faktına əsaslanaraq əməlin "istismar" təşkil etmədiyini iddia edə bilməz. Beləliklə, CM-nin 144-1-ci

maddəsindəki ümumi istismar tələbləri ilə uşaqların xüsusi cinayət-hüquqi mühafizəsi normaları arasında daxili rəqabət istisna edilir və əməlin düzgün tövsifinə təminat yaranır.

Sözügedən mütərəqqi yanaşma beynəlxalq hüquq səviyyəsində tam təsbit edilmişdir. ECPAT International-ın təşəbbüsü ilə İNTERPOL daxil olmaqla 18 beynəlxalq tərəfdaşın birgə qərarı ilə qəbul edilmiş mütərəqqi Terminologiya Rəhbər Prinsiplərinə (2016-cı il; təkmilləşdirilmiş ikinci nəşri — 2025-ci ilin mart ayı) əsasən, "uşaq pornoqrafiyası" və "uşaq fahişəliyi" terminləri tamamilə rədd edilməli, onların əvəzinə "uşaq cinsi istismarı materialları" və "uşaqların fahişəlik məqsədilə istismarı" terminləri tətbiq olunmalıdır [15]. Analoji olaraq, BMT-nin Uşaq Hüquqları Komitəsi 2019-cu ilin sentyabr ayında qəbul etdiyi Rəhbər Prinsiplərində (CRC/C/156) üzv dövlətlərə uşağa zərər yetirən və stiqmalaşdıran bu terminlərin aradan qaldırılmasını tövsiyə etmişdir [16].

Uşaqların cinsi istismarı ilə bağlı normaların sistemli və müasir tələblərə uyğun təkmilləşdirilməsi

Təklif olunan dəyişikliklər uşaqların cinsi istismarı zəncirindəki hər bir mərhələnin hüquqi mahiyyətinə uyğun olaraq məsuliyyətin diferensiasiyası prinsipinə əsaslanır. Bu yanaşma cinayətkar qəsdi sadəcə onun törədilmə üsuluna görə deyil, bilavasitə uşağa vurulan fiziki və mənəvi zərərin xarakterinə görə tövsif etməyə imkan verir. Bu kontekstdə Lansarot Konvensiyasının strukturuna tam uyğun olaraq, fiziki təmasla müşayiət olunan birbaşa istismar əməlləri (Konvensiyanın 19-cu maddəsi) ilə zorakılıq aktının materiallarda təsbit edilməsi (Konvensiyanın 21-ci maddəsi) prosesinin hüquqi cəhətdən bir-birindən ayrılması xüsusi əhəmiyyət kəsb edir [3].

Maddi-hüquqi normaların preventiv imkanlarının artırılması məqsədilə layihədə CM-nin 171-ci maddəsinin ağırlaşdırıcı hallarına "ağır nəticələrə səbəb olduqda" meyarının əlavə edilməsi təklif olunur. Seksual istismarın uşağın psixikasına vurduğu dağıdıcı və uzunmüddətli zərər hər zaman birbaşa fiziki güclə müşayiət olunmur. Lansarot Konvensiyasının 28-ci maddəsi də məhz bu boşluğun aradan qaldırılmasını və əqli (psixi) sağlamlığa vurulan ciddi zərərin müstəqil ağırlaşdırıcı əsas kimi nəzərdə tutulmasını tələb edir [3]. Bununla belə, təklif olunan "ağır nəticələr" anlayışı təkcə zərərçəkmişin fərdi psixi və ya fiziki sağlamlığı ilə məhdudlaşmır, həm də cinayətlə birbaşa səbəbli əlaqədə olan digər genişmiqyaslı sosial-ailəvi fəsadları (məsələn, yaxın ailə üzvlərinin ağır psixoloji sarsıntı nəticəsində vəfat etməsi və uşağın tamamilə himayəsiz qalması) özündə ehtiva edir.

Qanunvericiliyin daxili sistemliliyinin və cəzanın ədalətliliyi prinsipinin qorunması baxımından bu struktur uzlaşması CM-nin digər maddələrində, xüsusən də 144-cü maddəsində (Adam oğurluğu cinayətində) tətbiq olunan qanunvericilik texnikası ilə tam analogiya təşkil edir [2]. Belə ki, adam oğurluğu cinayətində zərərçəkmişə qarşı zor tətbiq etmə (maddə 144.2.4) ikinci dərəcəli ağırlaşdırıcı hal kimi təsbit edildiyi halda, cinayətin daha ağır fəsadı olan "ağır nəticələrə səbəb olduqda" (maddə 144.3.1) əlaməti müstəqil şəkildə daha yüksək sanksiyalı üçüncü hissəyə çıxarılmışdır. Bu sistemli yanaşmanı əsas tutaraq, layihə çərçivəsində "zor tətbiq etmə və ya zor tətbiq etməklə hədələmə" əlaməti maddədən çıxarılmamış, əksinə, maddənin dispozisiyasında yenidən strukturlaşdırılaraq, "zərərçəkmiş şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli olan" şərti ilə daha sərt formada qorunub saxlanılmışdır. Cəzaların mütənasibliyini təmin etmək məqsədilə, analoji olaraq, zərərçəkmişə qarşı zor tətbiq etmə maddənin ikinci hissəsində saxlanıldığı halda, uşağın intiharına və ya ehtiyatsızlıqdan ölümünə yol açan "ağır nəticələr" əlaməti daha yüksək məsuliyyət dərəcəsi müəyyən edən müstəqil üçüncü hissə kimi layihələndirilmişdir. Belə bir sintez həm zərərçəkmişə qarşı zorakılıq hallarını tam əhatə etməyə, həm də zorakılıq tətbiq edilmədən

uşağın mənəvi-psixoloji bütövlüyünə vurulan ağır mənəvi zərəri adekvat və mütənasib şəkildə cəzalandırmağa imkan verir. İslahat layihəsinin digər mühüm həlqəsi uşaq cinsi istismarı materiallarının sadəcə "saxlanılması" əməlinin müstəqil kriminallaşdırılmasıdır. Lansarot Konvensiyasının 20-ci maddəsinin tələblərinə uyğun olaraq, CM-nin 171-1-ci maddəsinin dispozisiyasından "yaymaq və ya reklam etmək məqsədilə" ifadəsinin çıxarılması tövsiyə edilir [3]. Bu tədbir materialların "şəxsi istifadə" bəhanəsi altında cəzasız saxlanılmasını hüquqi cəhətdən qeyri-mümkün edəcəkdir. Daxili İşlər Nazirliyi (DİN) İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin 2005–2025-ci illəri əhatə edən rəsmi statistikası göstərir ki, 2005–2016-cı illərdə bu maddə üzrə rəsmi olaraq 0 cinayət faktı qeydə alındığı halda, cinayətlərin rəqəmsal müstəviyə keçməsi ilə 2023-cü ildə bu göstərici 7-yə, 2024 və 2025-ci illərin hər birində isə ardıcıl olaraq 8-ə yüksəlmişdir [6].

Eyni zamanda, təsadüfi halların və sui-istifadələrin qarşısını almaq üçün qanunun subyektiv tərəfə dair fundamental prinsipləri layihədə ciddi şəkildə qorunmuşdur. Belə ki, şəxsin iradəsindən asılı olmayan texniki proseslər nəticəsində (brauzer keşi, avtomatik yükləmə, istənilmədən göndərilmiş və dərhal silinmiş fayllar) yaranan qeyri-iradi sahiblik cinayət tərkibi yaratmır.

Müasir kriminogen vəziyyət, xüsusilə generativ süni intellekt (Sİ) texnologiyalarının sürətli inkişafı fonunda uşaqların onlayn məkanda müdafiəsində tamamilə yeni və təhlükəli bir müstəvi yaratmışdır. Daxili İşlər Nazirliyi Polis Akademiyasının Elmi-tədqiqat şöbəsinin rəisi H. Eyvazovun da qeyd etdiyi kimi, İKT-nin sürətli inkişafı uşaqların onlayn istismarı sahəsində qabaqlayıcı addımların atılmasını mütləq edir [10]. Bu baxımdan, layihədə Sİ və xüsusi proqram təminatları vasitəsilə yaradılmış uşaq cinsi istismarı materiallarının dövriyyəsinə görə xüsusi ağırlaşdırıcı məsuliyyət müəyyən edən ayrıca maddənin əlavə edilməsi təklif olunur. Bu addım CM-nin 2026-cı ildə qəbul edilmiş və analoji texnologiyalarla böhtan, təhqir və pornoqrafik materialların yayılmasını tənzimləyən 148-2 və 242-1-ci maddələri ilə tam sistemli ardıcıllıq təşkil edir [2]. Polis polkovniki, dosent S. Hümbətovun qeyd etdiyi kimi, strateji infrastrukturun, o cümlədən kritik İKT sistemlərinin kibermüdafiəsi ilə yanaşı, real prototipi olmayan Sİ materiallarının kriminallaşdırılması ümumi ictimai təhlükəsizlik mühitinin və gənc nəslin mənəviyyatının qorunması məqsədini daşıyır [9].

Maddi-hüquqi islahatların effektiv tətbiqi, şübhəsiz ki, cinayət prosesində uşaqların təkrar travma almasının qarşısını alan etibarlı prosessual təminatlarla müşayiət olunmalıdır. Bu baxımdan, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili 2025-ci il üzrə İllik Məruzəsində irəli sürülmüş Cinayət Prosesi Məcəlləsinin 123-2 və 222.7-ci maddələrinə, habelə "Media haqqında" Qanunun 15.1.5-ci maddəsinə yetkinlik yaşına çatmayan zərərçəkmiş şəxslərin şəxsiyyətinin açıqlanmasının qadağan edilməsi təklifi bu sahədəki qabaqlayıcı islahatların kompleks və sistemli xarakterini uğurla tamamlayır [7].

Uşaqların seksual məqsədlərlə təqib edilməsi ilə bağlı preventiv islahatı və beynəlxalq standartların milli qanunvericiliyə unifikasiyası

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (CM) 171-2-ci maddəsində təklif olunan dəyişikliklər uşaqların müdafiə sisteminin preventiv imkanlarını genişləndirmək məqsədi daşıyır. Bu islahatın həyata keçirilməsi zamanı aşağıdakı konseptual və struktur dəyişikliklərin elmi-praktik cəhətdən əsaslandırılması zəruridir:

Fiziki görüş şərtinin aradan qaldırılması: Maddi-hüquqi normaların qabaqlayıcı xarakterini artırmaq üçün «görüşün baş verməsi üçün praktiki hərəkətlərin edilməsi» tələbinin dispozisiyadan tamamilə aradan qaldırılması tövsiyə olunur. Lansarot Komitəsinin 2015-ci il rəsmi rəyinə [18], Aİ-

nin 2011/93/EU nömrəli Direktivinin 6-cı maddəsinə [14] və BMT-nin Kiber-cinayətkarlığa qarşı Konvensiyasının (2024-cü il, maddə 15) [17] tələblərinə əsasən, onlayn rejimdə davam edən təqib prosesi uşağın psixikasına artıq rəqəmsal mərhələdə ciddi və bərpaolunmaz zərər vurur.

Dispozisiyaya «Zənnincə» meyarının daxil edilməsi və provokasiya riskinin aradan qaldırılması: Gizli əməliyyat-axtarış tədbirlərinin səmərəliliyini artırmaq üçün dispozisiyaya təqsirləndirilən şəxsin uşaqla ünsiyyətdə olduğuna dair «zənn» (subyektiv inam) meyarının daxil edilməsi təklif olunur. Bu norma, ünsiyyət qurulan şəxsin real olaraq uşaq olub-olmamasından asılı olmayaraq, yetkinlik yaşına çatmış subyektin uşaq hesab etdiyi şəxsə qarşı seksual qəsdini kriminallaşdırır və uşaq adından yaradılmış virtual profillər vasitəsilə gizli əməliyyatların keçirilməsinə əsas yaradır.

Lakin bu meyarın qanunvericiliyə gətirilməsi təcrübədə haqlı olaraq "əməliyyat provokasiyası" təhlükəsi və sübutların məqbulluğu ilə bağlı ciddi suallar doğurur. Azərbaycan Respublikasının tərəfdar çıxdığı İnsan Hüquqları üzrə Avropa Konvensiyasının 6-cı maddəsinin (Ədalətli məhkəmə araşdırması hüququ) tələblərinə və Avropa İnsan Hüquqları Məhkəməsinin (AİHM) formalaşdırdığı pretsedent hüququna əsasən, dövlət orqanlarının təhrikçiliyi nəticəsində əldə edilmiş sübutlar qeyri-məqbul hesab edilir [4].

Kiber-əməliyyatların keçirilməsi zamanı qanunilik hədlərini və qabaqlayıcı müdaxilənin sərhədlərini dəqiq müəyyən etmək üçün AİHM tərəfindən işlənib hazırlanmış üç fundamental standartın milli qanunvericilik təcrübəsində nəzərə alınması məqsədəmüvafiqdir.

Substansiv passivlik testi (Teixeira de Castro Portuqaliyaya qarşı, 1998) [12]**:** AİHM müəyyən etmişdir ki, gizli əməliyyat aparan agentlər ciddi şəkildə passivfəaliyyət göstərməlidirlər. Dövlət orqanları cinayətin törədilməsində sadəcə "iştirak etməli", lakin yeni bir cinayətkar niyyət yaratmamalıdırlar. Təklif olunan maddənin tətbiqində bu o deməkdir ki, uşaq profilini idarə edən əməliyyatçı qarşı tərəfi ünsiyyətə sövq edə, seksual mövzuları birinci başlada və ya təzyiq göstərə bilməz. Təşəbbüs və cinayətkar niyyət tamamilə və yalnız təqsirləndirilən şəxsin özündən irəli gəlməlidir.

Sübutetmə yükünün bölünməsi standartı (Ramanauskas Litvaya qarşı, 2008) [11]**:** AİHM-in Böyük Palatasının qərarına əsasən, əgər təqsirləndirilən şəxs məhkəmədə əməliyyat provokasiyasına məruz qaldığını iddia edərsə, sübutetmə yükü bütövlükdə ittiham tərəfinin (prokurorun) üzərinə keçir. Prokuror məhkəmədə sübut etməlidir ki, əməliyyat başlanmazdan əvvəl hüquq-mühafizə orqanlarında həmin şəxsin seksual qəsdi və cinayətkar meylləri barədə kifayət qədər obyektiv operativ məlumatlar mövcud olmuşdur.

Məhkəmə nəzarəti və metodoloji yoxlama (Bannikova Rusiyaya qarşı, 2010) [13]**:** Bu standart milli məhkəmələrin üzərinə əməliyyatın gedişatını həm maddi, həm də prosessual cəhətdən dərindən araşdırmaq vəzifəsi qoyur. Məhkəmələr əməliyyatın rəsmi icazə əsasında keçirildiyini, agentlərin fəaliyyətinin qeydə alındığını və təqsirkarın qəsdi ilə bağlı hər hansı təhrikçiliyin olmadığını müstəqil şəkildə yoxlamağa borcludurlar.

Bu beynəlxalq standartları əsas tutaraq, layihə çərçivəsində təqsirkarın provokasiyaya uğramaq təhlükəsini tamamilə istisna edən ikiqat hüquqi filtr müəyyən edilmişdir:

1. Cinayət məsuliyyəti yalnız o halda yarana bilər ki, təqsirləndirilən şəxs müraciət etdiyi tərəfi uşaq hesab edərək öz təşəbbüsü ilə aktiv hərəkətlərə başlasın.

2. "Ünsiyyət qurulması" anlayışının dar və funksional şərhi təmin edilmişdir. Maddəyə təklif olunan "Qeyd" hissəsində göstərilir ki, cinayət tərkibi yalnız o halda tamamlanmış hesab olunur ki, şəxs uşaq profilinə seksual xarakterli konkret məlumat, təklif və ya material göndərsin, yaxud

seksual məqsədlərlə görüş təyin etsin. Seksual məzmun daşımayan adi məişət yazışmaları və ya bu cür konkret hərəkətlərlə müşayiət olunmayan sadə niyyətlər cinayət məsuliyyəti yaratmır.

Yaş hədlərinin differensiasiyası: Milli qanunvericiliyin daxili struktur harmonizasiyasını təmin etmək məqsədilə, cinsi əlaqədə olmak məqsədilə təqib əməlinə görə on altı yaş həddinin müəyyən edilməsi tövsiyə olunur (bu, CM-nin 152-ci maddəsi ilə tam sistemli ardıcıllıq təşkil edir). Uşaq cinsi istismarı materiallarının hazırlanması məqsədilə təqib əməlinə görə isə yetkinlik yaş həddinin (on səkkiz yaş) saxlanılması Lansarot Konvensiyasının preambulasına və CM-nin 171-1-ci maddəsinə tam uyğundur.

Yekun olaraq qeyd etmək olar ki, tədqiqat çərçivəsində irəli sürülmüş mülahizələr uşaqların hüquqlarının və cinsi toxunulmazlığının müdafiəsi sahəsində milli qanunvericiliyin təkmilləşdirilməsi məqsədini daşıyır. Təhlil edilən məsələlər: subyekt yaşının unifikasiyası, terminoloji dəqiqləşdirmələr, rəqəmsal mühitdə preventiv mexanizmlərin nəzərdən keçirilməsi və süni intellektlə bağlı risklərin dəyərləndirilməsi, cinayət hüququ norma və prinsiplərinin müasir tələblərə uyğunlaşdırılmasına xidmət edir. Təklif olunan yanaşmalar uşaqların müdafiəsi mexanizmlərinin inkişafı istiqamətində aparılan qanunvericilik islahatlarına müəyyən elmi-praktiki töhfə verə bilər.

Əlavə: Cinayət məcəlləsində dəyişikliklər barədə müqayisəli cədvəl

Qüvvədə olan redaksiya	**Təklif olunan yeni redaksiya**
Maddə 171. Yetkinlik yaşına çatmayanları fahişəliyə, pornoqrafiya tamaşalarında iştirak etməyə və ya digər əxlaqsız əməllərə cəlb etmə	**Maddə 171. Yetkinlik yaşına çatmayanların fahişəlik məqsədilə istismarı**
171.1. Yetkinlik yaşına çatmayanı fahişəliyə, pornoqrafiya tamaşalarında iştirak etməyə və ya digər əxlaqsız əməllərə cəlb etmə —	171.1. On səkkiz yaşına çatmış şəxs tərəfindən yetkinlik yaşına çatmayanların fahişəlik məqsədilə istismarı —
171.2. Eyni əməllər:	171.2. Eyni əməllər:
171.2.1. zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə və ya digər məcburetmə vasitələri ilə törədildikdə;	171.2.1. təkrar törədildikdə;
171.2.2. mütəşəkkil dəstə tərəfindən törədildikdə —	171.2.2. zərərçəkmiş şəxsin həyatı və ya sağlıq üçün təhlükəli olan zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə və ya digər məcburetmə vasitələri ilə törədildikdə;
171.2.3. yetkinlik yaşına çatmayanın valideynləri və ya üzərinə qanunla yetkinlik yaşına çatmayanı tərbiyə etmək vəzifəsi qoyulmuş digər şəxslər və ya yetkinlik yaşına çatmayanlara nəzarəti həyata keçirmək vəzifəsini daşıyan təhsil, tərbiyə, tibbi və ya digər müəssisənin müəllimi və ya digər işçisi tərəfindən törədildikdə;	171.2.3. mütəşəkkil dəstə tərəfindən törədildikdə —

171.2.4. on altı yaşına çatmayan şəxs barəsində törədildikdə –	171.2.4. yetkinlik yaşına çatmayanın valideynləri və ya üzərinə qanunla yetkinlik yaşına çatmayanı tərbiyə etmək vəzifəsi qoyulmuş digər şəxslər və ya yetkinlik yaşına çatmayanlara nəzarəti həyata keçirmək vəzifəsini daşıyan təhsil, tərbiyə, tibbi və ya digər müəssisənin müəllimi və ya digər işçisi tərəfindən törədildikdə;
	171.2.5. on altı yaşına çatmayan şəxs barəsində törədildikdə —
	171.3. Bu Məcəllənin 171.1 və 171.2-ci maddələrində göstərilən əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə, intihar həddinə çatdırma və ya digər mühüm ağır nəticələrə səbəb olduqda —
Maddə 171-1. Uşaq pornoqrafiyasının dövriyyəsi	**Maddə 171-1. Uşaq cinsi istismarı materiallarını yayma, reklam etmə, satma, başqasına vermə, göndərmə, təklif etmə, əldə edilməsinə şərait yaratma, əldə etmə və ya saxlama**
171-1.1. Uşaq pornoqrafiyasını yayma, reklam etmə, satma, başqasına vermə, göndərmə, təklif etmə, əldə edilməsinə şərait yaratma, yaxux yaymaq və ya reklam etmək məqsədilə hazırlama, əldə etmə və ya saxlama –	171-1.1. On səkkiz yaşına çatmış şəxs tərəfindənuşaq cinsi istismarı materiallarını yayma, reklam etmə, satma, başqasına vermə, göndərmə, təklif etmə, əldə edilməsinə şərait yaratma, əldə etmə və ya saxlama –
171-1.2. Eyni əməllər:	171-1.2. Eyni əməllər:
171-1.2.1. təkrar törədildikdə;	171-1.2.1. təkrar törədildikdə;
171-1.2.2. qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən törədildikdə;	171-1.2.2. qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (təşkilat) tərəfindən törədildikdə;
171-1.2.3. xeyli miqdarda gəlir əldə etməklə törədildikdə;	171-1.2.3. xeyli miqdarda gəlir əldə etməklə törədildikdə;
171-1.2.4. yetkinlik yaşına çatmayanın valideynləri və ya üzərinə qanunla yetkinlik yaşına çatmayanı tərbiyə etmək vəzifəsi qoyulmuş digər şəxslər və ya yetkinlik yaşına çatmayanlara nəzarəti həyata keçirmək vəzifəsini daşıyan təhsil, tərbiyə, tibbi və ya digər müəssisənin müəllimi və ya digər işçisi tərəfindən törədildikdə;	171-1.2.4. yetkinlik yaşına çatmayanın valideynləri və ya üzərinə qanunla yetkinlik yaşına çatmayanı tərbiyə etmək vəzifəsi qoyulmuş digər şəxslər və ya yetkinlik yaşına çatmayanlara nəzarəti həyata keçirmək vəzifəsini daşıyan təhsil, tərbiyə, tibbi və ya digər müəssisənin müəllimi və ya digər işçisi tərəfindən törədildikdə;
171-1.2.5. təqsirkar şəxs üçün aşkar surətdə on dörd yaşına çatmayan şəxs barəsində törədildikdə;	171-1.2.5. təqsirkar şəxs üçün aşkar surətdə on dörd yaşına çatmayan şəxs barəsində törədildikdə;

Qeyd:	Qeyd:
1. Bu Məcəllənin 171-1-ci maddəsinin məqsədləri üçün "uşaq pornoqrafiyası" dedikdə, yetkinlik yaşına çatmayan şəxsin və ya yetkinlik yaşına çatmayan təsəvvürünü yaradan şəxsin aşkar seksual xarakterli hərəkətlərdə real və ya simulyasiya edilmiş iştirakını əks etdirən, yaxud seksual məqsədlərlə yetkinlik yaşına çatmayanların cinsi orqanlarını əks etdirən istənilən əşyalar və ya materiallar, o cümlədən aşkar seksual hərəkətlərdə iştirak edən yetkinlik yaşına çatmayan şəxsi əks etdirən realistik təsvirlər başa düşülür.	1. Bu Məcəllənin Maddə 171-1-ci maddəsinin məqsədləri üçün "Uşaq cinsi istismarı materialları" dedikdə, yetkinlik yaşına çatmayan şəxsin və ya yetkinlik yaşına çatmayan təsəvvürünü yaradan şəxsin aşkar seksual xarakterli hərəkətlərdə real və ya simulyasiya edilmiş iştirakını əks etdirən, yaxud seksual məqsədlərlə yetkinlik yaşına çatmayanların cinsi orqanlarını əks etdirən istənilən əşyalar və ya materiallar, o cümlədən aşkar seksual hərəkətlərdə iştirak edən yetkinlik yaşına çatmayan şəxsi əks etdirən realistik təsvirlər başa düşülür.
2. Bu Məcəllənin 171-1.2.3-cü maddəsində "xeyli miqdar" dedikdə, min manatdan artıq olan məbləğ başa düşülür.	2. Bu Məcəllənin 171-1.2.3-cü maddəsində "xeyli miqdar" dedikdə, min manatdan artıq olan məbləğ başa düşülür.
	3. Bu maddənin məqsədləri üçün materialın xarakterini bilə-bilə və qəsdən ona sahiblənmə subyektiv tərəfin mütləq əlaməti hesab olunur. Şəxsin iradəsindən asılı olmayan texniki proseslər nəticəsində (internet brauzerinin keşi, proqram təminatının avtomatik yükləmə fəaliyyəti, şəxsin sorğusu və razılığı olmadan göndərilmiş və aşkar edildikdən dərhal sonra silinmiş fayllar) yaranan qeyri-iradi mövcudluq bu maddə üzrə cinayət tərkibini təşkil etmir.
Maddə 171-2. Seksual xarakterli məqsədlərlə uşaqların təqib edilməsi	**Maddə 171-2. Seksual xarakterli məqsədlərlə uşaqların təqib edilməsi**
Yetkinlik yaşına çatmış şəxs tərəfindən on dörd yaşına çatmayan şəxslə cinsi əlaqədə olma, seksual xarakterli hərəkətlər etmək və ya uşaq pornoqrafiyasının istehsalı məqsədilə həmin şəxsin on dörd yaşına çatmadığını bilə-bilə ona informasiya və kommunikasiya texnologiyaları vasitəsilə görüş təklif etməklə bu görüşün baş verməsi üçün praktiki hərəkətlər edildikdə –	171-2.1. On səkkiz yaşına çatmış şəxs tərəfindən informasiya-kommunikasiyatexno-logiyalarından istifadə etməklə:
	171-2.1.1. Cinsi əlaqədə olmaq və ya cinsi xarakterli digər hərəkətlər etmək məqsədilə on altı yaşına çatmayan və ya təqsirləndirilən şəxsin zənnincə on altı yaşına çatmayan

	şəxslə ünsiyyət qurulmasına görə
	171-2.1.2. Uşaq cinsi istismarı materiallarının hazırlanması məqsədilə yetkinlik yaşına çatmayan və ya təqsirləndirilən şəxsin zənnincə yetkinlik yaşına çatmayan şəxslə ünsiyyət qurulmasına görə
	Qeyd: Bu Məcəllənin 171-2.1-ci maddəsinin məqsədləri üçün «ünsiyyət qurulmasına görə» dedikdə, şəxsin müraciət etdiyi tərəfi uşaq hesab edərək informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə seksual xarakterli məlumat, təklif və ya material göndərməsi, görüş təyin etməsi və ya bu məqsədlərə yönəlmiş digər konkret hərəkətləri etməsi başa düşülür. Seksual xarakter daşımayan adi yazışmalar, eləcə də bu cür konkret hərəkətlərlə müşayiət olunmayan niyyətlər cinayət məsuliyyəti yaratmır.
(Mövcud redaksiyada yoxdur)	**Maddə 171-3. Uşaq cinsi istismarı materiallarının hazırlanması**
	171-3.1. On səkkiz yaşına çatmış şəxs tərəfindən uşaq cinsi istismarı materiallarının hazırlanması —
	171-3.2. Eyni əməllər:
	171-3.2.1. təkrar törədildikdə;
	171-3.2.2. zərərçəkmiş şəxsin həyatı və ya sağlıq üçün təhlükəli olan zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə və ya digər məcburetmə vasitələri ilə törədildikdə;
	171-3.2.3. mütəşəkkil dəstə tərəfindən törədildikdə —
	171-3.2.4. yetkinlik yaşına çatmayanın valideynləri və ya üzərinə qanunla yetkinlik yaşına çatmayanı tərbiyə etmək vəzifəsi qoyulmuş digər şəxslər və ya yetkinlik yaşına çatmayanlara nəzarəti həyata keçirmək vəzifəsini daşıyan təhsil, tərbiyə, tibbi və ya digər müəssisənin müəllimi və ya digər işçisi tərəfindən törədildikdə;
	171-3.2.5. on altı yaşına çatmayan şəxs barəsində törədildikdə —
	171-3.3. Bu Məcəllənin 171-3.1 və 171-3.2-ci

	maddələrində göstərilən əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə, intihar həddinə çatdırma və ya digər mühüm ağır nəticələrə səbəb olduqda —
(Mövcud redaksiyada yoxdur)	**Maddə 171-4. Süni intellekt texnologiyaları, habelə xüsusi proqram təminatları vasitəsilə uşaq cinsi istismarı materiallarının dövriyyəsi**
	On səkkiz yaşına çatmış şəxs tərəfindən süni intellekt texnologiyaları, habelə xüsusi proqram təminatları vasitəsilə Uşaq cinsi istismarı materiallarını yayma, reklam etmə, satma, başqasına vermə, göndərmə, təklif etmə, əldə edilməsinə şərait yaratma, hazırlama, əldə etmə və ya saxlama –

Biblioqrafiya

1. Azərbaycan Respublikasının Konstitusiyası. 12 noyabr 1995-ci il tarixli Referendumla qəbul edilmişdir (mütəmadi əlavə və dəyişikliklərlə).

2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı, 1999-cu il 30 dekabr (1 sentyabr 2000-ci il tarixdən qüvvəyə minmişdir, 2026-cı il redaksiyası).

3. "Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" Avropa Şurası Konvensiyasının (Lansarot Konvensiyası) təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 22 oktyabr 2019-cu il, № 1681-VQ.

4. "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın və onun 1, 4, 6 və 7 saylı Protokollarının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, Bakı şəhəri, 25 yanvar 2002-ci il, № 236-IIQ.

5. "Yetkinlik yaşına çatmayanların cinayətləri barədə işlər üzrə məhkəmə təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2008-ci il 30 iyun tarixli 4 nömrəli Qərarı.

6. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin 2005-2025-ci illəri əhatə edən rəsmi statistik məlumatları // insanalveri.gov.az.

7. Azərbaycan Respublikasında insan hüquqlarının qorunması haqqında Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2025-ci il üzrə illik məruzəsi. Bakı, 2026-cı il // ombudsman.az.

8. Səmədova Ş.T. Cinayətlərin kateqoriyalaşdırılmasının əhəmiyyəti və cinayət məsuliyyətinə cəlb olunma yaşı // Bakı Universitetinin Xəbərləri (Sosial-siyasi elmlər seriyası), 2011, №4, s. 31-42.

9. Hümbətov S. Kibertəhlükəsizlik və Azərbaycan // DİN-in Polis Akademiyası, "DİO-da idarəetmənin təşkili" kafedrası, Bakı, 2023.

10. Eyvazov H. Virtual məkanda uşaq hüquqlarının etibarlı müdafiəsi // DİN-in Polis Akademiyası, Elmi-tədqiqat və redaksiya-nəşriyyat şöbəsi, Bakı, 2024.

11. Avropa İnsan Hüquqları Məhkəməsinin Böyük Palatasının Qərarı. Case of Ramanauskas v. Lithuania, 5 February 2008, Application no. 74420/01 // hudoc.echr.coe.int.

12. Avropa İnsan Hüquqları Məhkəməsinin Qərarı. Case of Teixeira de Castro v. Portugal, 9 June 1998, Application no. 25829/94 // hudoc.echr.coe.int.

13. Avropa İnsan Hüquqları Məhkəməsinin Qərarı. Case of Bannikova v. Russia, 4 November 2010, Application no. 18757/06 // hudoc.echr.coe.int.

14. Directive 2011/93/EU of the European Parliament and of the Council of 13 December 2011 on combating the sexual abuse and sexual exploitation of children and child pornography, and replacing Council Framework Decision 2004/68/JHA // L 335, Official Journal of the European Union.

15. ECPAT International. Terminology Guidelines for the Protection of Children from Sexual Exploitation and Sexual Abuse (Luxembourg Guidelines), Second Edition, March 2025 // ecpat.org.

16. United Nations Committee on the Rights of the Child. Guidelines regarding the implementation of the Optional Protocol to the Convention on the Rights of the Child on the sale of children, child prostitution and child pornography, CRC/C/156, September 2019 // ohchr.org.

17. United Nations, General Assembly. Resolution 79/243: United Nations Convention against Cybercrime, A/RES/79/243 (24 December 2024) // undocs.org/A/RES/79/243.

18. Lanzarote Committee (Committee of the Parties). Opinion on Article 23 of the Lanzarote Convention and its explanatory note, Adopted on 15-17 June 2015 // rm.coe.int.

Məqalə daxil olmuşdur: *26 avqust 2026-cı il*
Çapa qəbul edilmişdir: *17 sentyabr 2026-cı il*

Багирбекова А.Х.♦

DOI: 10.25108/2304-1730-1749.iolr.2026.84.38-51
УДК: 343.541-053.2

Совершенствование уголовно-правовой защиты детей от сексуальной эксплуатации: международные стандарты и перспективы реформирования национального законодательства

Аннотация: С научно-практической позиции анализируются вопросы повышения предупредительных возможностей статей 171, 171-1 и 171-2 Уголовного кодекса Азербайджанской Республики, а также концептуального и терминологического совершенствования этих норм в свете прогрессивных международных стандартов, включая Лансаротскую конвенцию. В исследовании выдвигаются следующие научные рекомендации: единое определение возрастного предела субъекта в преступлениях сексуальной эксплуатации детей на уровне 18 лет; замена этически устаревших терминов «проституция» и «порнография» на «материалы сексуальной эксплуатации детей» в соответствии с международными стандартами; установление специальной ответственности за распространение виртуальных материалов, созданных с помощью искусственного интеллекта; устранение условия физической встречи в онлайн-

♦**Багирбекова Айдан Хикмет гызы** - студентка факультета Правоведение Бакинского государственного университета (Азербайджан). E-mail: aydanlinkin@gmail.com

операциях и применение критерия «предположения». Предлагаемые реформы, наряду с сохранением внутренней системности национального законодательства, модернизируют механизмы защиты прав детей.

Ключевые слова: Лансаротская конвенция, материалы сексуальной эксплуатации детей, эксплуатация в целях проституции, онлайн-преследование, критерий субъективного предположения, искусственный интеллект, Уголовный кодекс.

Дата поступления: *26 августа 2026 г.*
Дата принятия в печать: *17 сентября 2026 г*